**Ümid**

Könlümdə sabaha inam olmasa,
Bu axşam səhərə çıxa bilmərəm.
Boz bulud tutulub göydə dolmasa,
Min yerdə şimşəktək çaxa bilmərəm.

Həyata ümidli gözlə baxmasam,
Gələcək eşqiylə yola çıxmasam,
Qarşımda yüksələn dağı yıxmasam,
Çaylardan dənizə axa bilmərəm.

Tikanı biçməyə oraq olmasam,
Elimə-obama dayaq olmasam,
Işıqlı, nurlu bir çıraq olmasam,
Qaranlıq dünyanı yıxa bilmərəm.

Ey könül azadlıq mahnısı oxu,
Yorulma, gözünə gəlməsin yuxu.
Zərrəcə sarsılsan, zəhərli oxu
Zalımın köksünə taxa bilmərəm.

1990 fevral

Dilənçi P. Ümid : şeir // Ulduz. – 1991. - № 1. – S. 34.35.